# HACIQABUL

№ 13
(672)

30 avqust
2017-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti




# Qeyri-neft sektorunun inkişafı Azərbaycanın bütün bölgələrini əhatə edir

***Ötən il dünya iqtisadiyyatı dərin böhran keçirdi. Cari ildə də bu böhran davam edir. Əsas səbəbi böyük güclərin siyasi qarşıdurmaları və bunun nəticəsində neftin qiymətinin kəskin şəkildə aşağı düşməsidir. Azərbaycan iqtisadiyyatının da əsasını neft sənayesi təşkil etdiyindən bu ucuzlaşmanın yaratdığı fəsadlar ölkəmizdən də yan keçmir.***

İndi bir sıra ölkələr siyasi ambisiyalardan çıxış edərək rəqiblərinə qarşı iqtisadi müharibə aparır. Məsələn, Qərb neftin qiymətini süni şəkildə aşağı endirməklə Şimal qonşumuza iqtisadi zərbə vurur.

Azərbaycan da neft ölkəsidir, ixracatımızda karbohidrogen daşıyıcıları üstünlük təşkil edir. Lakin iqtisadiyyatın çoxşaxəli inkişafı istiqamətində də addımlar atılır. Bunun sayəsində ölkəmizdə qeyri-neft sektoru formalaşmağa başlayıb. Bu gün neftin üç dəfədən də çox ucuzlaşmasına baxmayaraq ölkəmizin dərin böhrana düşməməsinin səbəbi məhz budur. Hazırda neft-qaz sənayesi ilə paralel inkişaf edən qeyri-neft sektoru iqtisadiyyatımızda dayanıqlığın təminatında mühüm rol oynayır. Bu sektorda məhsul istehsalı ildən-ilə artır. Son 10 ildə paytaxtda və iri şəhərlərdə sənaye texnoparkları yaradılıb, bölgələrdə isə sənaye məhəllələrinin yaradılmasına start verilib. Qeyri-neft sektoruna verilən dəstək sayəsində bu gün Azərbaycanda minlərlə kiçik, orta və iri sənaye, kənd təsərrüfatı, emal və turizm müəssisələri fəaliyyət göstərir. Eyni zamanda tikinti sektorunda yaradılan müxtəlif təyinatlı məhsul istehsalı müəssisələri ümumi inkişafa töhfə verir. İndi xaricdən tikinti mallarının alınması minimum həddə enib, bəzi məhsulları isə ixrac edirik. Paralel olaraq ölkədə kənd təsərrüfatı məhsullarının emal sənayesi də formalaşıb. Artıq bir sıra kənd təsərrüfatı məhsulları emal edilərək xaricə də ixrac olunur.

Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlərə yüksək qiymət verərək demişdir: "Xüsusilə qeyri-neft sektorunun inkişafı böyük əhəmiyyət daşıyır. Son illər ərzində bu istiqamətdə böyük işlər aparılmışdır. Əgər biz vaxtilə qeyri-neft sektorunun inkişafı ilə məşğul olmasaydıq, bu gün iqtisadi inkişafımız o qədər də uğurlu olmazdı. İqtisadi şaxələndirmə, qeyri-neft sektorunun inkişafı 2017-ci ildə iqtisadi sahədə əsas prioritet olacaqdır. Əminəm ki, biz bu il ərzində bu istiqamətdə daha böyük uğurlara nail olacağıq. Ümumiyyətlə, ümumi daxili məhsulumuzun strukturu müsbətə doğru dəyişir, qeyri-neft sektorunun çəkisi artır. Bu, müsbət haldır. Neftdən asılılıq azalır. Ancaq biz bu asılılığı minimum səviyyəyə endirməliyik ki, gələcəkdə neftin qiymətindən asılı olmayaq. Vəzifə bundan ibarətdir. Hesab edirəm ki, biz düşünülmüş siyasət, gərgin iş nəticəsində buna nail ola biləcəyik".

Hər bir iqtisadiyyatın inkişafı investisiya qoyuluşu tələb edir. İndiyədək Azərbaycanda ən çox xarici sərmayə neft sektoruna yatırılıb. Çünki neft sektoru gəlirli biznes olduğu üçün xarici investorlar üçün daha cəlbedicidir. Dövlət başçısı hökumətin sözügedən iclasındakı nitqində qeyd etdi ki, indi xarici sərmayə qeyri-neft sektoruna cəlb edilməlidir. Bu istiqamətdə kənd təsərrüfatı, sənaye və xidmət sektoru prioritet sahə kimi götürülməlidir. Xarici investorlarla Azərbaycan iqtisadiyyatına sərmayə qoymaları üçün səmərəli iş aparılmalıdır. Bunun üçün onlar ölkəmizin inkişaf tempi və daxili bazarın tələbatı ilə tanış edilməlidir. Bir sözlə, xarici sərmayədarlar əmin olmalıdırlar ki, ölkəmizə investisiya qoymaqda yanılmayacaqlar. Ötən il ümumilikdə ölkə iqtisadiyyatına 20 milyard dollar sərmayə qoyulub. Yatırılan sərmayənin yarısı xarici investisiyalardır. Bu da onu göstərir ki, Azərbaycan dünyada baş verən böhrana baxmayaraq yenə də xarici sərmayədarlar üçün cəlbedici ölkə olaraq qalır. Hökumət cari ildə həyata keçiriləcək iqtisadi siyasət zamanı daha çox xarici investisiyanın qeyri-neft sektoruna qoyulmasına çalışmalıdır. Çünki bu gün qeyri-neft sektorunun inkişafı ölkə iqtisadiyyatının dayanıqlığını təmin edən əsas faktordur.

## *Hacıqabul rayonu ərazisində 2017-ci ildə becərilmiş pambığın operativ yığılmasının təşkili üçün rayon İcra Hakimiyyətində Qərargah yaradılması barədə Hacıqabul rayon İcra Hakimiyyəti Başçısının S Ə R Ə N C A M I*

Son illərdə qeyri-neft sektorunun o cümlədən, kənd təsərrüfatının inkişafı sahəsində ölkə rəhbərliyinin apardığı məqsədyönlü və uğurlu siyasətinə müvafiq olaraq əvvəllər Respublikamızda əsas sahələrdən olmuş pambıqçılığın inkişafı hazırda prioritet sahələrdən birinə çevrilmişdir. 2017-ci ildə Hacıqabul rayonu ərazisində 1203,9 hektar sahədə pambıq əkini həyata keçirilmiş və məhsuldarlığa nail olunmuşdur.

Hazırda becərilmiş pambığın qısa müddətdə itkisiz yığılaraq emal müəssisələrinə təhvil verilməsi zərurəti yaranmışdır.

Göstərilənləri nəzərə alaraq

**QƏRARA ALIRAM:**

1. Hacıqabul rayonu ərazisində 2017-ci ildə becərilmiş pambığın operativ yığılmasının təşkili üçün rayon İcra Hakimiyyətində aşağıdakı tərkibdə Qərargah yaradılsın.

**Qərargahın sədri:**

- Əslan Səmədov - Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini

**Qərargahın sədr müavini:**

- Nurbala Mirzəyev - Kənd Təsərrüfatı İdarəsinin rəisi

**Qərargahın üzvləri:**

- Fikrət Qasımov - Rayon İcra Hakimiyyəti Başçısının müavini
- İbad Həşimov - Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri
- Rəşad Abbasov - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini
- Elvin Şıxəliyev - İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini
- Məmməd Hüseynov - Rayon Polis şöbəsinin rəisi
- Əlabbas Məmmədov - Kənd Təsərrüfatı İdarəsinin bitki sektorunun baş məsləhətçisi
- Xuraman Hüseynova - "Hacıqabul" qəzetinin redaktoru
- Beydulla Qarayev - Mərkəzi Rayon Xəstəxanasının baş həkimi
- Şükür Məmmədov - Rayon Təhsil Şöbəsinin müdiri
- Elnur Əmirəslanov - Sabirabad Regional Mədəniyyət və Turizm Şöbəsinin Hacıqabul rayonu üzrə nümayəndəsi
- Laləzar İbrahimova - Hacıqabul şəhər İƏD üzrə nümayəndə
- Cavid Vəliyev - Meyniman kənd İƏD üzrə nümayəndə
- Vəli Ələkbərov - Meyniman kənd bələdiyyəsinin sədri
- Rövşən Həsənov - Abdulabad kənd İƏD üzrə nümayəndə
- İsmayıl İsmayılov - Abdulabad kənd bələdiyyəsinin sədri
- Vahid Fərəcov - Ələtli kənd İƏD üzrə nümayəndə
- İslam Hüseynov - Qarasu bələdiyyəsinin sədri
- Mətləb Səfərov - Padar qəsəbə İƏD üzrə nümayəndə

2. Tapşırılsın Qərargah üzvlərinə əhali arasında maarifləndirmə işlərini aparmaqla pambıq yığımının sürətləndirilməsini təşkil etsinlər.

3. Rayon Polis şöbəsinə tapşırılsın ki, rayon ərazisində pambıq yığımı ilə əlaqədar asayişin təmin olunmasının gücləndirilməsini təşkil etsin.

4. Qərargahın fəaliyyətinə nəzarəti öz üzərimə götürürəm.

***Əhməd Muxtarov,***
***Hacıqabul rayon İcra Hakimiyyətinin Başçısı***

*25 avqust 2017-ci il*

# Pambıq kolları bol məhsuldan xəbər verir

***Bu günlər bərəkətli torpaqlarda əkinçilər günəşi tarlada qarşılayıb, tarlada da yola salırlar. Bu da təsadüfü deyil. Dövlət səviyyəsində pambıqçılığa dəyişən münasibət taleyini torpağa bağlayan, halal zəhmətinə güvənən kəndliyə stimul verib. Rayonumuzun Ələtli kəndindən olan torpaq mülkiyyətçisi Əlifağa Hüseynov da pambıqçılardakı yüksək əhval-ruhiyyədən həvəslə söhbət açdı.***

Əlifağa göz işlədikcə uzanıb gedən yamyaşıl pambıq sahəsinə girib ətrafa nəzər saldı. Bir neçə gün əvvəl suvarılmış pambıq tarlası könül oxşayırdı. İsti havalar artq sahəni təpitmişdi. Cərgələrin arası ilə bir qədər irəlilədikdən sonra yan budaqları bir-birinə toxunan kolları aralayıb diqqətlə baxdı. Bir kolun üstündəki qozaları saymağa başladı: 5,10,15,20,30,35.

Bundan başqa həmin kolda bir o qədər də gül-daraq var idi. Yəqinlik hasil etmək üçün bir neçə koldakı qozaları da saydı. Onlar daha çox idi. Təcrübəli pambıqçı fikrində topladı, çıxdı, sonra öz-özünə: Allah saxlasın belə getsə bol məhsul olacaq- dedi. Sonra kolların yuxarı uclarını nəzərdən keçirdı. "Deyəsən, istilər sovkaları yandırıb, heç yumurtaları da görünmür. Günü sabah dərmanlama aparmaq lazımdır ki, kolların boyu inkişafdan dayansın, gücü yan budaqlara, əmələ gələn barın çəkisinin artmasına versin"- deyə qeyd etdi.



Əlifağa Hüseynov bu il 15 hektar sahədə pamdıq əkmişdir. Pambıq elimizin-obamızın xoş güzəranı, dolanışığıdır-deyir. Çəkdiyimiz zəhmət, axıtdığımız alın təri hədər getməyib. Məhsul bolluğundan xəbər verən kollar üzə gülür. Becərmədə aqrotexniki qaydalara əməl olunmuş, pambığın xəstəlik və ziyanvericilərinə qarşı təsirli mübarizə aparılmışdır. Becərmə işləri artıq başa çatmaq üzrədir. Bartoplama aylığı isə davam edir. Bu il pambıqçılıq üçün çox əlverişlidir. Havaların isti və quraq keçməsi, əkin sahələrinin vaxtlı-vaxtında suvarılması bol məhsul üçün vacib şərtdir. Pambıq günəşi sevən bitkidir, həm də suya çox tələbkardır. Bu iki şərtin reallaşması və keyfiyyətli becərmə tarlalarımızda bol məhsula etibarlı bünövrə yaratmışdır. Dövlətin qayğısı isə qolumuza qüvvət, ürəyimizə təpər verir.

Qabaqcıl fermerlərdən Fərrux Misirxanov (Ələtli kəndi; 10 ha) Səadət Mirzəyeva (Qarasu kəndi;4 6 ha) Murad Abdullayev (Qarasu kəndi;55 ha) Natiq Dostəliyev (Meyniman kəndi;10 ha) və başqa fermerlərin əkib-becərdikləri sahələr də göz oxşayır, kollardakı qozalar tam bara dolmuş, tarlalar məhsul yığımına hazır vəziyyətə gətirilmişdir. Ümümiyyətlə, cənab Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq carı mövsümdə rayonumuzda 1203,9 ha sahədə pambıq əkilmişdir. Bundan 800 hektarı Sabirabad " MKT İstehsalat Kommersiya MMC" , 403, 9 hektarı isə Hacıqabul MMC ilə bağlanmış müqavilə əsasında əkilmişdir. Padarda 605 ha, Qarasuda 241 ha, Meynimanda 165 ha, Ələtlidə 155 ha, Abdulabadda 38 ha sahədə pambıq əkilmişdir. Pambıq əkinləri 3 dəfə suvarılmış, sahələrə 3 dəfə kultivasiya çəkilmiş, becərmə işləri aqrotexniki tələblər səviyyəsində görülmüşdür. Tarlalarda sovkaya, trips, mənənə, tor gənəciyinə (qırmızı hörümçək) qarşı mübarizə tədbirləri, əkinlərdə müşahidə olunan xəstəlik və ziyanvericilərə qarşı dərmanlama vaxtlı-vaxtında aparılmışdır. Pambıq diqqət və qayğı, həm də hərarət və su tələb edən bitkidir. Avqust ayı pambıq üçün mühüm dövrdir. Buna bar toplama ayı da deyirlər. Avqustun sonuna doğru sahələr yaşıl donunu yavaş-yavaş dəyişir, kollardakı yarpaqlar saralıb solur. Avqustun sonu, sentyabrın ilk günləri tarlalar ağ örpəyə bürünür. Bu il məhsul yığımına 42 kombayn cəlb olunacaqdır. Dövlət Başçısı cənab İlham Əliyevin bu yaxınlarda imzaladığı "2017-2022-ci illərdə pambıqçılığın inkişafı ilə bağlı Dövlət Proqramı" Hacıqabulun kənd əməkçilərinin də ürəyincə olmuşdur. Keçən il pambığın əhalidən satınalma qiymətinin hər kiloqrama görə 50 qəpiyə qaldırılması, hər kiloqram üçün dövlət tərəfindən 10 qəpik subsidiya verilməsi, habelə Dövlət Proqramının qəbul edilməsi pambıqçılığın inkişafı üçün yeni imkanlar açır. Hazırda rayonumuzun pambıq əkinlərində 4-cü kompleks becərmə aparılır. Bütün qüvvələr aqrotexniki tədbirlərin keyfiyyətlə yerinə yetirilməsinə cəlb edilmişdir. Sahələrin vəziyyəti deməyə əsas verir ki, rayonumuzun pambıqçıları hər hektardan ən azı 20 sentnerdən çox məhsul əldə etməklə keçən ilin nəticəsini təzələyəcəklər. Bəzi fermerlər isə daha yüksək nəticələr əldə etmək əzmi ilə çalışırlar. Bəli, "ağ qızıl" milli sərvətimiz, strateji xammal bazası olmaqla həm də camaatımızın dolanışıq mənbəyidir. Bu sərvətin toplanılmasına çox az vaxt qalmışdır. Uğur olsun, əziz kənd əməkçilərimiz!

***Nazim Fətixanoğlu***

# Tanımadığımız dünya şöhrətli tanınmışlarımız

***Hacıqabulumuzdan çıxmış bir çox alimlərimiz uzun müddət xarici ölkələrdə işləmiş, böyük nailiyyətlər əldə etmiş, bir çox beynəlxalq konfranslarda Vətənimizi ləyaqətlə təmsil etmiş, bir çox nüfuzlu, dünyada məşhur olan qəzet və jurnallar onların barəsində geniş məlumatlar dərc etmişlər.***





Belələrindən biri uzun müddət Tayvanda işləmiş həmyerlimiz Rayyət Hüseyn oğlu Hüseynov bu yaxınlarda dissertasiya müdafiə edərək, kimya elmləri doktoru olmuşdur.

Daha bir həmyerlimiz ünlü iş adamı, M. V. Lomonosov adına Universitetin Bakı filialının prorektoru Saleh Abdullayev də bu yaxınlarda texnika elmləri doktoru elmi adı almışdır.

Daha bir həmyerlimiz isə olduqca savadlı, eyni zamanda çox təvazökar, sakit və mədəni, özü barədə danışmağı xoşlamayan bir insan olan Hikmət Məmməd oğlu Kərimovdur.

Orta məktəbdə - indiki 6 saylı şəhər orta məktəbində Hikmətin sinif rəhbəri coğrafiya müəllimi Firidun Dadaşov, direktoru isə tanınmış pedaqoq Rafiq Rəhimov olmuşdur.

O, Neft və Kimya İnstitutunun (hazırki Neft Akademiyasının) kimya-texnologiya fakultəsinə daxil olmuş və 1989-cu ildə İnstitutun Elmi Şurasının qərarı ilə aspiranturada saxlanılmışdır.

27 yaşında ikən "Kimyəvi kinetika və kataliz" ixtisası üzrə namizədlik dissertasiyasını müdafiə edərək, alimlik dərəcəsi almış, 1995-ci ildə isə görkəmli alim Azad Mirzəcanzadənin imzası ilə dosent vəzifəsinə təyin edilmişdir.

1999-cu ildə Almaniya Federativ Respublikasının elm fondu tərəfindən elan edilmiş müsabiqədə 35 alim arasından seçilmiş 15 nəfər sırasında olmuşdur.

AFR-dan qayıtdıqdan sonra Hikmət Kərimov Heft-Kimya İnstitutunda Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının prezidenti Ramiz Musayevin təşəbbüsü ilə tələbələrin diplom müdafiəsi üzrə elmi şuranın katibi olmuşdur.

O, 2006-cı ildə Sumqayıt Texnologiya Parkında 6 zavodun tikilməsi işində kadr hazırlığına və tikintiyə rəhbərlik edib.

Həmyerlimiz "Yanar şistlərin kompleks emal texnologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Hikmət Kərimovun əsərləri Böyük Briraniyada, ABŞ-da, Kanadada, Almaniyada çap edilmişdir. Almaniyanın həftəlik iqtisadiyyat jurnallarından biri onun haqqında geniş yazı dərc etmişdir.

"Kristal Holl" da Hikmət müəllimin layihəsi əsasında tikilmiş və bu barədə də Almaniya mətbuatı yazmışdır.

Bakıdakı Bayraq Meydanının tikintisinin bünövrəsinin qranitinin Ukraynadan gətirilməsi gündəmdə olsa da, meydanın güclü şüalanması həmin qranitlə deyil, Hikmət müəllimin kəşf etdiyi Daşkəsən qraniti ilə inşa edildi.

Şüvəlandakı Şimal DRES-inin II layihəsi onun müəllifliyi ilə müvəffəqiyyətlə həyata keçirildi.Bu barədə Yaponiyanın nüfuzlu jurnallarından birində məqalə də dərc edilmişdir.

Hazırda Hikmət Kərimovun 52 yaşı var.Hacıqabulumuzun fəxri olan bu böyük alimdən Vətənimiz hələ çox xeyirli işlər gözləyir.

Barəsində daha ətraflı danışacağımız digər həmyerlimiz isə riyaziyyat üzrə elmlər doktoru Rövşən Əlifağa oğlu Bəndəliyevdir.

O, 26 iyul 1974-cü ildə Hacıqabulda anadan olmuş, 1981-1990-cı illərdə 9 saylı dəmir yol (hazırkı 6 saylı şəhər) orta məktəbində təhsil almışdır. Riyaziyyat müəllimi Tərlan Bünyadov, sinif rəhbəri isə Cavanşir Bağırov olmuşlar. O xatırlayır ki, Cavanşir müəllim çox tələbkar idi, şagirdlərlə ciddi maraqlanırdı. Hüseyn müəllim İsayev isə ona rəsm fənnindən dərs deyib...

Bu yaxınlarda AMEA-nın fəxri diplomu ilə təltif edilmiş həmyerlimiz həmçinin professor vəzifəsinə təyin edilmişdir, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda baş elmi işçi vəzifəsində işləyir.

R. . Bəndəliyev 1997-ci ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakultəsinin riyaziyyat ixtisası üzrə bakalavr pilləsini, 1999-cu ildə həmin Universitetin "Riyazi analiz" ixtisası üzrə magistr dərəcəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1999-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun "Riyazi analiz" şöbəsinə aspiranturaya qəbul olmuş, 2000-ci ildə İnstitutun "Riyazi analiz" şöbəsinin kiçik elmi işçisi vəzifəsinə işə qəbul olunmuşdur.

2000-2002-ci illərdə AMEA-nın müxbir üzvü, prof. V. S. Quliyevin rəhbərliyi altında "Banaxqiymətli funksiyalardan ibarət anizotrop çəkili Sobolev fəzasında daxilolma teoremləri" mövzusunda namizədlik dissertasiyası üzərində işləmiş və 2002-ci ildə müvəffəqiyyətlə dissertasiya işini müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsini almışdır. 2003-cü ildən başlayaraq 2013-cü ilə qədər riyaziyyat üzrə elmlər doktoru dissertasiya mövzusu üzərində çalışmış və 2014-cü ildə"Banax funksional fəzalarında Harmonik analizin inteqral operatorları və bəzi tətbiqləri"adlı dissertasiya işini müdafiə edərək riyaziyyat üzrə elmlər doktoru elmi dərəcəsini almışdır. 2008-ci ildə Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının qərarı ilə dosent elmi adına layiq görülmüşdür. Qeyd edək ki, R.Ə. Bəndəliyevin riyaziyyat üzrə elmlər doktoru dissertasiya işində yeni dəyişən dərəcəli və qarışıq normalı funksional fəzalar daxil edilmiş və hal-hazırda bu fəzalarda müxtəlif riyaziyyatçılar tərəfindən tədqiqatlar aparılır və bir neçə fəlsəfə doktorluğu və elmlər doktorluğu üzrə dissertasiya işləri yazılmış və bəziləri müdafiə edilmişdir.

R. Bəndəliyev 2003-cü ildən başlayaraq AMEA Riyaziyyat və Mexanika İnstitutunun "Riyazi analiz" şöbəsində əvvəlcə elmi işçi, sonra isə böyük elmi işçi vəzifəsinə təyin edilmişdir. 2012-ci ildən isə aparıcı elmi işçi vəzifəsində çalışır. Bütün bunlarla yanaşı R. Bəndəliyev 2011-2014-cü illərdə AMEA Riyaziyyat və Mexanika İnstitutunda fəaliyyət göstərən D 01.111 doktorluq dissertasiya şurasının nəzdindəki elmi tematik seminarın elmi katibi olmuşdur. 2015-2016-cı illərdə D 01.111 doktorluq dissertasiya şurasının elmi katibi olmuşdur.

R. Bəndəliyev müntəzəm olaraq beynəlxalq, ümumittifaq və respublika elmi konfranslarda çıxış etmiş, o cümlədən, 2008-cı ildə Rusiya Federativ Respublikasının Moskva şəhərində REA-nın müxbir üzvü, prof. L. D. Kudryavtsevin 85 illik yubileyinə həsr olunmuş Beynəlxalq konfransda, 2008-ci ildə İtaliya Respublikasının Roma şəhərində prof. V. Q. Mazyanın 70 illiyinə həsr olunmuş Beynəlxalq konfransda, 2008-ci ildə Rusiya Federativ Respublikasının Novosibirsk şəhərində akademik S. L. Sobolevin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq konfransda, 2008-ci ildə Gürcüstan Respublikasının Tbilisi şəhərində akademik V. M. Kokilaşvilinin sədrliyi ilə keçirilən işçi seminarda plenar məruzəçi olmuşdur. 2009-cu ildə Ukrayna Respublikasının Kiyev şəhərində akademik N. N. Boqolyubovun 100 illik yubileyinə, 2010-cu ildə Rusiyanın Saratov şəhərində keçirilən ənənəvi qış məktəbində, 2012-ci ildə Kamenets-Podo1ski şəhərində UEA-nın müxbir üzvü, prof. A. İ. Stepanetsin 70 illik yubileyinə, 2013-cü ildə Sevastopol şəhərində akademik A. M. Samoylenkonun 75 illik yubileyi münasibətilə keçirilən, 2011-ci və 2013-cü illərdə Rusiyanın Rostov şəhərində uyğun olaraq prof. S. Q. Samkonun 70 və İ. Simonenkonun 75 illik yubileylərinə həsr olunmuş, 2014-cü ildə Rusiyanın Novorossiysk şəhərində keçirilən, 2014-cü ildə Gürcüstan Respublikasının Tbilisi şəhərində Qafqaz ölkələrinin riyaziyyat ictimayyətinin təşkil etdikləri, 2016-cı ildə Gürcüstan Respublikasının Batumi şəhərində akademik N. K. Musxelişvilinin 125 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir və bəzi elmi bölmələrə rəhbərlik etmişdir. 2008-ci ildə Rusyanın Novosibirsk şəhərində akademik S. L. Sobolevin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq konfransda Sobolev adına olan medalla təltif olunmuşdur. 2013-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən elan olunmuş "Gənclər üçün Prezident mükafatı" müsabiqəsinə Riyaziyyat və Mexanika İnstitutu tərəfindən namizədliyi irəli sürülmüş və elmdə fərqləndiyinə görə AMEA-nın fəxri fərmanı ilə təltif olunmuşdur.

2014-cü ildən etibarən Polşa Respublikasının Varşava Texnologiya Universitetinin "Riyaziyyat və İnformatika elmləri" bölməsinin professoru Przemislav Qorkanın təklifi ilə elmi əməkdaşlığa başlanılmışdır. Bu əməkdaşlıq çərçivəsində 2016-cı ildə P. Qorka 14.04.2016-28.04.2016-cı ildə AMEA Riyaziyyat və Mexanika İnstitutunda olmuş və R. Bəndəliyevlə işçi seminarlar aparmış və Hausdorf operatorunun dəyişən dərəcəli Lebeq fəzalarında məhdudluğu və kompaktlığı məsələsi araşdırılmışdır. Bu müddət ərzində P. Qorka Riyaziyyat və Mexanika İnstitutunda keçirilən ümuminstitut seminarında da elmi məruzə ilə çıxış etmişdir. Ümumiyyətlə bu fəzalar istiqamətində R. Bəndəliyev müxtəlif ölkələrdən olan riyaziyyatçılarla, o cümlədən, İ. İ. Şarapudinov, L. Diening, P. Hasto, S. Q. Samko, V. M. Kokilaşvili, A. Almeyda, T. Kopaliani və başqaları ilə elmi əlaqələr saxlayır.

R. Ə. Bəndəliyev 2001-ci ildə Kardif Universitetinin professoru V.İ.Burenkov ilə AMEA-nın müxbir üzvü, prof. V. S. Quliyevin rəhbəri olduqları "Weighted spaces of differentiable functions, weighted inequalities for integral operators and applications" adlı 2 illik qalib layihə "NATO Science programme, collaborative linkage grant" proqramının iştirakçısı olmuşdur. 2003-cü ildə Azərbaycan-Amerika ikitərəfli qrant proqramı çərçivəsində (Award from Azerbaijan - U.S. Bilateral Grants Program Competition U.S. Civilian Research & Development Foundation) AMEA-nın müxbir üzvü, prof. V.S.Quliyevin və Alabama Universitetinin professoru Zhijian Wu ilə rəhbər olduqları "Holomorphic and harmonic function spaces, their boundary values and operator theory" adlı layihə müsabiqəsinin qaliblərindəndir. 2006-2008-ci illərdə İNTAS proqramı çərçivəsində keçirilən Cənubi Qafqaz ölkələrinin Avropa ölkələri ilə əməkdaşlıq çərçivəsində "Variable Exponent Analysis" adlı layihənin qalibi olmuşdur. 2011-2013-cü illərdə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən dəstəklənmiş və mərhum akademik A.C.Hacıyevin rəhbərlik etdiyi "Harmonik analizin inteqral operatorlarının bəzi funksional fəzalarda məhdudluğu və tətbiqləri" adlı layihənin qalibi olmuşdur. 2014-2015-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən dəstəklənmiş və AMEA-nın müxbir üzvü, prof. V. S. Quliyevin rəhbərlik etdiyi "Real analizin inteqral operatorlarının bəzi funksional fəzalarda məhdudluğu və tətbiqləri" adlı layihənin qalibi olmuşdur. 2015-ci ildə AMEA Rəyasət Heyəti tərəfindən tövsiyyə olunan "Lokal Morri tipli fəzalarda harmonik analizin müasir problemləri və tətbiqləri" adlı 2 illik elmi - tədqiqat proqramının iştirakçısıdır.

R.Bəndəliyev Kanada Elm və Təhsil mərkəzi tərəfindən nəşr edilən "Journal of Mathematics Research" beynəlxalq jurnalının redaksiya heyətinin üzvüdür. AMEA-nın "Fizika-texnika və riyaziyyat elmlərinin" Xəbərləri və Beynəlxalq Ekoenergetika Akademiyası tərəfindən çap olunan "Caspian Journal of Applied Mathematics, Ecology and Economics" adlı beynəlxalq jurnallarında məsul katibdir.

Çap olunmuş 63 elmi əsərin müəllifidir və həmin məqalələrin 17-sı Thomson Reuters siyahısına daxil olan nüfuzlu jurnallarda, bəziləri Scopus bazasına daxil olan jurnallarda və digər yerli və xarici jurnallrda çap olunmuşdur.

Çoxlarımızın tanımadığı bu dünya şöhrətli həmyerlilərimizlə fəxr edirik və onlara can sağlığı, gələcək işlərində uğurlar arzu edirik.

HÜSEYN LAYİQ - 95

# O əsl müəllim, əsl ziyalı idi

*Mən sevmişəm Vətənimi, şəhərimi-özümü,*
*Millətimi, qeyrətini, anadilli sözümü.*

*Mən sevmişəm ellərimi, Azərbaycan xalqımı,*
*Canbir qəlbdə ömür sürən, könül açan xalqımı.*

*Mən sevmişəm bərəkətli torpağımı, daşımı;*
*Bu nəsnədir uca edən şərəfimi, başımı.*

*Mən istərəm şəhərimin hüsnü olsun duz-çörək,*
*Gerbində də, himnində də qüvvət görək,güc görək.*

*Arzum budur, qanadlansın onun öz al bayrağı,*
*Çalaq, gülək, şadlıq edək o gün gözəl novrağı.*

*İstərəm ki, şeirim -"Töhfə"m olsun dillər əzbəri,*
*Məclislərin yaraşığı, ürəkaçan dilbəri.*

Bu günlərdə rayon Tarix-Diyarşünaslıq Muzeyində yerli peşəkar müəllim və həvəskar şair Hüseyn Hənifə oğlu İsayevin - Layiqin (1922-1999) "Töhfə" adlı şeirlər kitabının təqdimat mərasimi keçirilmişdir.

Müəllifinin doğma Hacıqabuluna həsr etdiyi şeirlərdən tərtib edilmiş kitabda müxtəlif janrlı şeirlər, o cümlədən. qəzəllər, bayatılar, rübailər və s. toplanmışdır. Kitaba daxil edilmiş "Yadındamı, Hərami!"və "Dağxilədə!" xüsusən diqqətəlayiq şeirlərdir.

Kitab Hüseyn Layiqə ailəcə yaxın olan Vüqar və Məlahət Həsənlilərin təsis etdikləri "Nərmin yayın evi" xəttilə nəşr edilmiş və onların gənc yaşında leykoz (qan xərçəngi) xəstəliyindən vəfat etmiş qızları Nərmin Həsənlinin (10.08.1992 - 09.01.2014) doğum gününün 26-cı ildönümünə töhfə edimişdir.

Hüseyn İsayev yarım əsrə yaxın müddətdə (1940-90-cı illər) Hacıqabul şəhərinin və yaxın kəndlərin orta məktəblərində Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə müəllim vəzifəsində, eləcə də rayon təhsil şöbəsində işləmiş, bir müddət rayon qəzetində məsul katib, rayon radiosunda redaktor vəzifələrində çalışmışdır;

Hüseyn İsayevi yaxından tanıyanlar bilirlər nki, o əsl müəllim, Azərbaycanı və azərbaycançılığı təbliğ edən, ədəbiyyata, qiraətə, mətbuata, ana dilinin özəlliyinə fikir verən, intellektual səviyyəsi çox geniş olan bir insan idi. O.daim tələbələrinə də əsl ana dilimizin özəlliyini aşılayırdı.

Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əsasını qoymuş və onun ilk direktoru olmuşdur (1989-1993);

Hazırda əsas fondunda 11000-dən çox kitab olan ailə kitabxanasının əsasını qoymuşdur (1946);

Həvəskar səviyyədə elmi (tarix, dilçilik, ədəbiyyatşünaslıq, pedaqogika) və bədii yaradıcılıqla məşğul olmuşdur;

Bir neçə dram əsəri ("Vəssalam", "Qeys və Leyla" və b.) yerli Xalq Teatrının səhnəsində tamaşaya qoyulmuşdur (1950-1980-ci illər)

Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, o cümlədən, mədəniyyət-muzey və kitabxana- və təhsil işçiləri, eləcə də şairin ailə yaxınları iştirak etmişlər.



Tədbirdə çıxış edənlər: Vüqar və Məlahət Həsənlilər; rayon Təhsil Şöbəsinin müdür müavini Balaxanım Ələsgərova, müəllimlər Xədicə Abasova, Mübariz Xəlilov, Səyyarə Həşimova; şairlər Cəbrayıl Xıdırov və Əmrah Şirvanlı; "Hacıqabul" qəzetinin redaktoru Xuraman Feyruz qızı; teatr rejissoru və aktyoru olmuş Oqtay Salahlı; rayon Mərkəzi Kitabxanasının şöbə müdiri Mayaxanım Mehdiyeva, rayon İcra Hakimiyyəti Başçısı Aparatının məsul işçisi Elvin Şıxəliyev, Sabirabad Regional Mədəniyyət və Turizm Şöbəsinin Hacıqabul rayonu üzrə nümayəndə Elnur Əmiraslanov Hüseyn Hənifə oğlu barədə ən xoş sözlər söyləmiş, eləcə də Nərmin Həsənlinin ruhuna dualar etmişlər.

Şair Hacı Cəbrayıl Hüseyn Layiqə həsr etdiyi şeirini ifa etmişdir:

***Sadə müəllim, gözəl insan,***
***Tapılmayır, vallah, asan...***
***Kimə lazım müəllim-susan!***

***Yarəb, qoru belələrin,***
***Daim yaşat əməllərin!***

***Hüseyn müəllim danışanda,***
***Danışdıqca alışanda,***
***Nələr dedi soruşanda!***
***Yarəb, qoru belələrin,***
***Daim yaşat əməllərin!***

***Bu gün onu yad edirik,***
***Ruhun anıb,şad edirik,***
***O deyən yolla gedirik,***
***Yarəb, qoru belələrin,***
***Daim yaşat əməllərin!***

***Söz çələngin əlimizdə,***
***Şeirlərin dilimizdə,***
***Hörmətin var elimizdə!***
***Yarəb, qoru belələrin,***
***Daim yaşat əməllərin!***

Tədbirin sonunda Hüseyn Layiqin Hacıqabul Pirallahı qəbristanlığındakı və Nərmin Həsənlinin Şirvan Çılpaqlı məzarlığındakı məzarları ziyarət olunmuşdur.

***Məhəmməd İsayev,***
***rayon Tarix-Diyarşünaslıq muzeyinin direktoru***

# Uğurlarınız bol olsun!

Bu günlərdə Şirvan şəhərində Azərbaycan QOCYU-RYU Okinava Karate -Do və Kobudo idman növü üzrə açıq şəhər birinciliyi keçirilmişdir. Bu yarışlara digər bölgə idmançıları ilə yanaşı Hacıqabul şəhər Milli Qəhrəman Mübariz İbrahimov adına İdman Sağlamlıq Mərkəzinin karateçiləri də qoşulmuşdular. Sevindirici haldır ki, komandamız ümumi komandalar arasında ikinci yerə layiq görülmüşdür. Komandamız ümumilikdə 17 medal əldə etmişdir ki, bunlardan 5-i qızıl, 4-ü gümüş, 8-i bürünc medallardır. Qalib idmançılarımız bunlardır.

***1.Elcan Quliyev - 1-ci yer, məktəbəqədər***
***2.Rəsul İsayev - 1-ci yer, 2 saylı orta məktəb***
***3.Şəhriyar Həşimov-1-ci yer, 5 saylı tam orta məktəb***
***4.Əli Quluzadə -2-ci yer, 8 saylı məktəb***
***5.Əli Bəndəliyev- 2-ci yer, 9 saylı məktəb***
***6.Famil Üzeyirov- 2-ci yer, Bakı şəhər sakini***
***7.Fərid Qəhrəmanlı-2-ci yer, şəhər 4 saylı tam orta məktəb***
***8.Azər Məmmədli- 3-cü yer, şəhər 2 saylı tam orta məktəb***
***9.Emin Talıbov- 3-cü yer, şəhər 3 saylı tam orta məktəb***



***10.Murad Səmədbəyli-3-cü yer, 9 saylı tam orta məktəb***
***11.Alim Adıgözəlov-3-cü yer,8 saylı məktəb***
***12.Əlövsət Baloğlanov 3-cü yer, 9 saylı məktəb***
***13.Vüsal Süleymanov-3-cü yer, 4 saylı məktəb***
***14.Ağasəlim İgidəliyev- 3-cü yer, 8 saylı məktəb***

Əlavə döyüş proqramında Rəsul İsayev və Şəhriyar Həşimov qızıl medallar, Ağasəlim İgidəliyev isə bürünc medala layiq görülmüşdür.

Qazanılmış 17 medal ümumilikdə həm idmançılarımız, həm də rayon ictimaiyyəti üçün böyük bir qələbədir.

Arzu edirik ki, bu qələbələrin, uğurların sayı daha çox olsun.

Sözsüz ki, qələbə qazanmış balaca idmançılarımızın üzərində təlimatçı-məşqçi, dəfələrlə dünya, Avropa çempionu olmuş, bir çox beynəlxalq yarışların, turnirlərin qalibi, III DAN Qara Kəmər ustası, Hacıqabul rayonu üzrə baş təlimatçı Elnur Şəfiyevin böyük əməyi vardır. Bu uğurlar münasibəti ilə Elnur Şəfiyevi təbrik edir və arzu edirik ki, yetirmələri, tələbələri daha böyük uğurlar qazansınlar.

***Nazim Fətixanoğlu***

# "Vətənim Azərbaycan" adlı sərgi

Bu günlərdə Şirvan şəhər Heydər Əliyev Meydanında "Vətənim Azərbaycan" adlı sərgi-tədbir keçirildi. Hacıqabul rayon Heydər Əliyev Mərkəzinin və Şirvan şəhər Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbir yay aylarında bölgələrə gələn xarici və yerli turistlər, eləcə də şəhər sakinlərinin yay istirahətlərinin səmərəli təşkili məqsədilə reallaşdırılıb.

Tədbirdə Şirvan şəhər İcra Hakimiyyəti başçısinin birinci müavini Samit Abiyev, şəhər Heydər Əliyev Mərkəzi, Şirvan şəhər Tarix-diyarşünaslıq muzeyi, şəhər Mərkəzi Kitabxanası, Şirvan Dövlət Rəsm Qalereyası, şəhər Bələdiyyəsi, şəhər Statistika İdarəsi, Haciqabul rayon Heydər Əliyev Mərkəzi, Sabirabad Regional Mədəniyyət və Turizm İdarəsinin Hacıqabul rayon nümayəndəliyi və şəhər sakinləri iştirak ediblər. Qonaqlara Hacıqabul rayon Heydər Əliyev Mərkəzinin direktoru Aytən Zülfəliyeva sərgidə olan əsərlər barədə və Mərkəzdə fəaliyyət göstərən kurslar barədə ətraflı məlumat verdi.

Sərgidə 15-dən çox rəssamın 50-dək sənət əsərləri nümayiş edilib. Sərginin ekspozisiyasında vətənpərvərlik,



qəhrəmanlıq, təbiət mövzusuna həsr olunan əsərlər yer alıb. Şirvan və Hacıqabul mədəniyyət işçilərinin birgə əməkdaşlığı bundan sonra da davam edəcək.Sentyabr ayında daha böyük sərginin isə rayonumuzda Heydər Əliyev parkında keçirilməsi planlaşdırılır.

# Azərbaycanda Milli Kino günü



Rayon Heydər Əliyev Mərkəzində "Azərbaycanda Milli Kino günü" adlı tədbir keçirilmişdir. Gələn qonaqlar həmin gün milli kinomuzda ifa olunan santrekleri dinləmiş, Mərkəzin Baş fond mühafizi qonaqları "Kino sərvətimizdir " adlı sergi ilə tanış etmiş və sərginin ayın sonuna kimi davam edəcəyini elan etmişdir. Tədbir iştirakçılarına Azərbaycan kinosunun yaranma tarixi haqqında qısa məlumat verilmiş, sonra rayon Tarix-Diyarşunaslıq Muzeyinin direktoru Məhəmməd İsayev Milli kinomuz haqqında geniş məlumat vermiş,həmçinin Milli kinomuzda rol alan həmyerlimiz olan aktyorlar barədə danışmışdır. Tədbirin sonunda Milli kinomuzdan fraqmentlər təqdim olunmuşdur.

***Bahar Abasova,***
***rayon Heydər Əliyev Mərkəzinin Baş fond mühafizi***

# Əmək yarmarkası keçirilmişdir

## *Rayon Məşğulluq Mərkəzinin inzibati Binasında "Əmək yarmarkası" keçirilmişdir*



Yarmarkanın keçirilməsi üçün tədbirlər planı hazırlanmış və rayon İcra Hakimiyyəti Başçısı Aparatında təsdiq olunmuşdur. Əhaliyə əvvəlcədən müraciət vərəqələri paylanılmış, müəssisə və təşkilat rəhbərləri yarmarkaya dəvət olunmuşdular. Əmək yarmarkasında rayon İcra Hakimiyyəti Başçısının 1-ci müavini Aslan Səmədov və Dövlət Məşğulluq Xidmətinin Yerli orqanlarla və sosial tərəfdaşlarla iş sektorunun baş məsləhətçisi Xətai Mehrəliyev iştirak etmişdir.

Rayon Məşğulluq Mərkəzinin direktoru Çingiz Həsənov bildirdi ki, yarmarkaya rayonda fəaliyyət göstərən 28-i dövlət, 4-ü qeyri-dövlət olmaqla 32 idarədən 143 boş iş yeri çıxarılmışdır. Bu iş yerlərinin 118-i dövlət, 25-i isə qeyri-dövlət müəssisələrindən toplanmışdır. Bunlardan 77 nəfəri fəhlə, 66 nəfəri qulluqçulardır.

Əmək Yarmarkasında 64 nəfər vətəndaşa işə göndəriş verilmiş, 2 nəfər kvota yerinə işə göndərilmiş, 14 nəfər ictimai işlərə, 12 nəfər isə peşə kurslarına cəlb olunmuşdur.

***"Hacıqabul"***

# HACIQABUL

№ 13 (672) 30 avqust 2017-ci il


## 2017-ci il sentyabr ayı üçün Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatında vətəndaşların qəbul günləri

| | Vəzifəsi | Həftənin günləri | Saat |
|---|---|---|---|
| 1 | İcra Hakimiyyətinin Başçısı | I | 15:00 |
| 2 | İcra Hakimiyyəti Başçısının birinci müavini | II | 14:00 |
| 3 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | III | 14:00 |
| 4 | Başçının müavini-İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri | IV | 14:00 |
| 5 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri | V | 14:00 |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri | VI | 10:00 |

**Qeyd: Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları:** (02120) 4-41-91, (02120) 4-41-58

# Vergi uçotundan yayınma hallarının qarşısı alınıb

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 2017-ci ilin aprel ayının 1-dən etibarən sahibkarlıq subyektləri arasında mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi zamanı elektron qaimə-fakturalar tətbiq edilir. Ötən müddət ərzində "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanunun qüvvəyə minməsi, elektron qaimə-faktulaların tətbiqi, əməliyyatların şəffaflaşdırılması vəvergi uçotunun bərpasını nəzərdə tutan dəyişikliklərlə bağlı vergi ödəyiciləri arasında geniş məlumatlandırma işləri aparıb və görüşlər keçirilib. Bunlarla yanaşı, vergi qanunvericiliyinin tələblərinə əməl edilməsi vəziyyətinin nəzarətdə saxlanılması üçün Vergilər Nazirliyində yaradılmış müvafiq məlumat bazalarında sözügedən dəyişikliklərlə əlaqədar məlumatlar mütəmadi olaraq araşdırılır, riskli vergi ödəyiciləri müəyyən edilirvə həmin vergi ödəyiciləri üzrə nəzarət tədbirləri həyata keçirilir.

Vergilər Nazirliyi tərəfindən iyul ayı ərzində həyata keçirilən araşdırmalar zamanı vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatlarda kifayət qədər riskləyaranması halları aşkar edilib.Belə ki, bəzi vergi ödəyiciləri tərəfindən təqdim edilmiş mallara (işlərə, xidmətlərə) görə elektron qaimə-fakturaların verilmədiyi, malların (işlərin, xidmətlərin) satılmasına baxmayaraq, həmin əməliyyatlara görə vergilərin dövlət büdcəsinə ödənilmədiyi, satışdan əldə edilmiş pul vəsaitlərinin uçota alınmadığı, "Nağdsız hesablaşmalar haqqında" Qanunun tələblərinə əməl edilmədiyi və bir sıra pozuntulara yol verildiyi müəyyən edilib. Bəzi hallarda isə vergi ödəyiciləri heç bir təsərrüfat subyektləri (anbarı, mağazası və s.) olmadığı halda, aldıqları (idxal etdikləri) malların satışını vergiyə cəlb etməyərək, həmin malları "mal qalığı" kimi göstərirlər.

Qeyd olunanlarla əlaqədar, Vergilər Nazirliyi yanında Lokal Vergilər Departamenti tərəfindən Bakı şəhərində fəaliyyət göstərən bir neçə riskli vergi ödəyicilərində malların elektron qaimə-faktura tətbiq etməklə həyata keçirilməsinə, malların və pul vəsaitinin uçotdan gizlədilməsi və ya uçota alınmaması hallarına, eləcə də nağdsız hesablaşmaların həyata keçirilməsi ilə bağlı qanunla müəyyən olunmuş tələblərə əməl olunmasına nəzarət edilməsi məqsədi ilə operativ vergi nəzarəti həyata keçirilib.Bu tədbirlərin əsas məqsədi, vergi ödəyicilərində şəffaf vergi uçotunun qurulması və vergi öhdəliklərinin yerinə yetirilməsinə nail olmaqdır.

Cari ilin iyul ayı ərzində həyata keçrirlmiş tədbirlər nəticəsində ümumilikdə 10 milyon 529 min manat dəyərində mal-materialın əskik gəldiyi (mövcud olmadığı), yeni vergi ödəyiciləri tərəfindən satılmasına baxmayaraq, satışdan əldə olunan gəlirin müvafiq vergi bəyannamələrində əks etrilmədiyi və vergidən yayındırıldığı,885,2 min manatməbləğində mal-materialın isə uçotsuz, yəni sənədsiz olduğu müəyyən edilib.

Həyata keçirilmiş yoxlamalar nəticəsində dövlət büdcəsindən yayındırılmış 1 milyon 916 min manat məbləğində ƏDV-nin vergi bəyannamələrində bərpa edilməsi üçün müvafiq tədbirlər görülüb.

Vergilər Nazirliyi xəbərdarlıq edir ki, maliyyə sanksiyalarına və cərimələrə məruz qalmamaq üçün, vergi ödəyiciləri şəffaf vergi uçotunun qurulması, malların (işlərin, xidmətlərin) alışı və satışının qanunvericiliyin tələblərinə uyğun rəsmiləşdirilməsi və "Nağdsız hesablaşmalar haqqında" Qanunun tələblərinə ciddi əməl edilməsini təmin etməlidirlər.

***Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzi***

# Təbrik edirik!



Bahar təravətli gülüm,
Açarsan, qəlbim açılar.
İlim, ayım, xoşbəxt günüm,
Sənlə başlar, sənlə bitər.

Dünyamıza gəldiyin gün,
Yağıbdı sevgi yağışı.
Doğubdu qəlbimizə gün,
Şirindi övlad baxışı.

Tanrı verən hədiyyəsən,
Dəyərin yox, qiymətin yox.
Şəkər-balsan, çox şirinsən,
Sevir səni hamı çox-çox.

Gülnurun 5 yaşı tamam olur. Bu münasibətlə onu nənələri Gülxanım və Sona həkim, xalası Hədiyyə təbrik edir, ona xoş günlər arzu edirlər.

## Elan

Rayon Aqrar İslahat Komissiyasının 30 iyul 1998-ci il tarixli qərarı ilə Rəcəbov Xanməmməd Qarakişi oğlunun adına verilmiş JN-0018, kodu 91002018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

---

Rayon Aqrar İslahat Komissiyasının 16 iyun 3003-cü il tarixli qərarı ilə Udulu kənd sakini Məmmədov Aslan Heydər oğlunun adına verilmiş JN-0130, kodu 91008028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

# Müğənnilikla məşğul olan vergi ödəyicilərinin nəzərinə!

***Bildiririk ki, Azərbaycan Respublikasının Konstitusiyasının 73-cü maddəsinə əsasən qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.***

Vergi Məcəlləsinin 16-cı maddəsinə əsasən qanunla müəyyən edilmiş vergilərin ödənilməsi, gəlir və xərclərin uçotunun aparılması, vergi hesabatlarının təqdim edilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Eyni zamanda, vergi öhdəliklərini tam həcmdə və vaxtında yerinə yetirməyən, o cümlədən vergini hesabatda göstərilməli məbləğə nisbətən azaldan və büdcəyə çatası vergi məbləğini hesabat təqdim etməməklə vergidən yayınan şəxslərə qarşı qanunvericiliklə müəyyən edilmiş maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri tətbiq edilir.

Vergi Məcəlləsinin 23.1.15-3-cü maddəsinə əsasən vergi ödəyicisi vergi öhdəliyini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, vergi borclarının ödənilməsini təmin etmək üsulu kimi vergi ödəyicisi olan fiziki şəxsin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçünvergi orqanıməhkəməyə müraciət etmək hüququna malikdir.

Digər tərəfdən, Cinayət Məcəllesinin 213-cü maddesinə əsasən isə xeyli və ya külli miqdarda vergiləri ödəməkdən yayınma cinayət əməli hesab olunur.

Xatırladırıq ki, təqdim etdiyiniz bəyannamələrdə gəlirləriniz barədə müvafiq məlumatları düzgün əks etdirmədiyiniz halda, Vergi Məcəlləsinin 67-ci maddəsinə əsasən əlaqəli məlumatlardan istifadə edilməklə müəyyənləşdirilmiş faktiki gəlir məbləğləri təqdim olunmuş bəyannamələrin göstəriciləri ilə üzləşdiriləcək və vergidən yayındırılmış məbləğlər kameral hesablama aparılmaqla şəxsi vərəqənizə bərpa olunacaqdır.

Odur ki, fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçünmövcud qanunvericiliyin tələblərinə əməl etməklə vergi öhdəliklərinizi vaxtında və tam şəkildə yerinə yetirməyiniz Sizə tövsiyə olunur!

Əlavə məlumat almaq üçün qeydiyyatda olduğunuz vergi orqanına və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

***Azərbaycan Respublikası Vergilər Nazirliyi***

## Allah rəhmət eləsin!

Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi iş yoldaşları Güləli Əhmədova qardaşı

**Xanəlinin**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

---

"Hacıqabul" qəzetinin redaktoru Xuraman Hüseynova və Hacıqabul şəhər İƏD üzrə nümayəndə Laləzar İbrahimova Güləli Əhmədova qardaşı

**Xanəlinin**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

---

Sabirabad regional Mədəniyyət və Turizm İdarəsinin Hacıqabul rayonu üzrə nümayəndəsi Elnur Əmiraslanov Güləli Əhmədova qardaşı

**Xanəlinin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

Hacıqabul şəhər İƏD üzrə nümayəndə Laləzar İbrahimova və "Hacıqabul" qəzetinin redaktoru Xuraman Hüseynova 58 saylı Hacıqabul-Kürdəmir DSK-nın sədri Məmmədd Hacıyevə qardaşı

**Buludxanın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

---

"Hacıqabul" qəzetinin müxbiri Nazim Zeynalov Məhəmməd Hacıyevə qardaşı

**Buludxanın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.


**HACIQABUL**

**Baş redaktor:** Xuraman Feyruzqızı

**Həmtəsisçi:** Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200